AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

# «AZƏRBAYCAN RESPUBLİKASINDA TƏHSİLİN İNKİŞAFI ÜZRƏ DÖVLƏT STRATEGİYASI»NA MÜVAFİQ AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN STRATEJİ

# İNKİŞAF PLANI.

**İnkişaf planı Azərbaycan Tibb Universitetinin Elmi Şurasının « 19 »_mart___2015-ci il tarixli iclasında (pr. № 7) müzakirə olunaraq qəbul edilmişdir.**

**Rektor** **akademik Ə.T.Əmiraslanov**

**BAKI - 2015**

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi, təhsil sahəsində, o cümlədən tibb təhsili sahəsində də köklü islahatlar aparmış, cəmiyyətin inkişafına uyğun olaraq onun ehtiyaclarını və tələbatını ödəmək məqsədilə xeyli işlər görülmüşdür. Ali tibb təhsilinin dünya və Avropa tibb təhsili məkanına inteqrasiya etməsi üçün əlverişli zəmin yaradılmışdır. 2005-ci ildə Azərbaycan hökuməti ali təhsil sahəsində Boloniya bəyannaməsini imzalamış, ölkə Prezidenti möhtərəm İlham Əliyev cənablarının 22.05.2009-cu il 295 nömrəli Sərəncamı ilə «2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı», 2012-ci il dekabr Fərmanı ilə «Azərbaycan – 2020: gələcəyə baxış» inkişaf konsepsiyası və 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası» təsdiq edilmiş və onların icrası ilə əlaqədar müvafiq icra strukturaları tərəfindən Tədbirlər Planı hazırlanmışdır.

Qeyd edilən Sərəncamların icrasını təmin edilməsi məqsədilə ölkənin ali təhsil müəssisələri qarşısında bir sıra vacib məsələlər qoyulmuşdur. «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nda qeyd edildiyi kimi «sosial-iqtisadi həyatın müasirləşdirilməsində təhsilin rolu təkcə təhsilalanların qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir».

Ötən illər ərzində Azərbaycan Tibb Universiteti (ATU) həkim, hərbi həkim, əczaçı və hərbi feldşerlərin hazırlanmasında xeyli işlər görmüş, müstəqillik illərində universitetin maddi-texniki bazası gücləndirilmiş, tibb

təhsilinin yaxşılaşdırılması üçün 4 klinik bazasını yaratmış, 2000-ci ildən başlayaraq müharibə şəraitində yaşayan ölkə üçün bütün pillələr üzrə hərbi tibb kadrlarının hazırlığını həyata keçirmiş, tədris proqramını Avropa və dünya tibb təhsili proqramlarına uyğunlaşdırmışdır.

ATU-da elmin, ali tibb təhsilinin inkişaf etdirilməsi, kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi və ali tibb təhsilinin Avropa və dünya təhsil məkanına tamlıqla inteqrasiyasının sürətləndirilməsi məqsədi ilə konsepsual yanaşmaları və strateji fəaliyyət istiqamətlərini əks etdirən İnkişaf Planının hazırlanmasına ehtiyac yaranmışdır.

Azərbaycanda tibb təhsilinin 1 sentyabr 1919-cu ildə yaradılmış Bakı Dövlət Universitetinin müvafiq fakultəsində şərqdə ilk Avropa tibb təhsil sistemi kimi əsası qoyulmuş, 1930-cu il isə bütün sonrakı dövrlər ərzində ölkənin tibb kadları hazırlığının əsl bayraqdarına çevrilmiş Azərbaycan Dövlət Tibb İnstitutunun yaranma tarixi kimi daxil olmuşdur. Respublika hökumətinin 1991-ci il 4 fevral tarixli 94 nömrəli qərarı ilə bu ali təhsil müəssisəsi universitet statusu almışdır.

"Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 13.07.2000-ci il tarixli Fərmanına əsasən ATU özünüidarəetmə prisipi əsasında fəaliyyət göstərir.

Hazırda universitetin tərkibində struktur bölmə kimi 6 fakultəsində ali tibb təhsilinin əsas təhsili və bakalavriatura səviyyəsində 6 ixtisas, magistratura səviyyəsində 5 ixtisas, rezidentura səviyyəsində 38 ixtisas üzrə 6738 tələbə və rezident təhsil alır. Uzun müddət müharibə şəraitinin mövcud olduğunu nəzərə alaraq 2000-ci ildən ulu öndər Heydər Əliyev cənablarının 25 may 2000-ci il tarixli 425 nömrəli Sərəncamının 3-cü maddəsinə əsasən ordunu

hərbi həkim və hərbi feldşerlə təmin etmək üçün universitetdə hərbi tibb fakultəsi yaradıldı. Universitetdə yüksəkixtisaslı təhsili təmin etməklə tələbələr və rezidentlər hərtərəfli qayğı ilə əhatə olunmuş və onların ixtiyarına zəruri maddi-texniki baza ilə təchiz olunmuş klinikalar, laboratoriya və auditoriyalar, Əsaslı kitabxana, idman kompleksi verilmişdir.

Universitetdə 77 kafedra, tədris, tədris-metodiki və innovasiyalar, elm, kadrlar, beynəlxalq əlaqələr, xüsusi, hərbi səfərbərlik, redaksiya-nəşriyyat, mətbuat, rezidentura şöbələri, xarici tələbələrlə iş üzrə dekanlıq, istehsalat təcrübəsi dekanlığı, elmi-tədqiqat mərkəzi, 2 sahə elmi-tədqiqat laboratoriyası, virtual test mərkəzi, informasiya və kommunikasiya texnologiyaları mərkəzi, müasir tələblərə cavab verən elektron kitabxana, mətbəə, idman kompleksi və üzgüçülük hovuzu, tədris-terapevtik klinika, tədris-cərrahiyyə klinika, onkoloji klinika, stomatoloji klinika, Nabran «Şəfa» istirahət mərkəzi, şəhər tipli tələbə poliklinikası və mülki müdafiə qərargahı fəaliyyət göstərir.

Son illər universitetin beynəlxalq əlaqələri xeyli genişlənmişdir. O Avropa Universitetləri Assosiasiyası, Qara Dəniz Universitetləri Şəbəkəsi, Qafqaz Universitetlər Birliyi adlı beynəlxalq qurumların üzvüdür. Son illərdə 33-dən çox ölkənin 135 elm və təhsil müəssisəsi ilə ikitərəfli müqavilələr əsasında hərtərəfli tibb mütəxəssislərinin, müəllim və tələbələrin mübadiləsi sahəsində əməkdaşlıq edir. 1962-2013-cü illərdə 31 ölkədən 1813 nəfər xarici vətəndaş həkim, həkim-mütəxəssis və elmi dərəcəli mütəxəssis kimi hazırlanaraq öz ölkələrində fəaliyyət göstərirlər.

Tibb təhsili prosesinin və təbabət sahəsində elmi-tədqiqatların intensiv olaraq yenilənməsi ilə xarakterizə olunan ATU-da bir sıra strateji məsələlər (müasir maddi-texniki baza, yüksək hazırlıqlı professor-müəllim korpusu, tədris sahəsində innovativ yanaşmalar və texnologiyaların tətbiqi, Boloniya

bəyannaməsinin əsas müddəalarına uyğun olaraq kredit sisteminin tətbiqinə başlanılması, müasir avadanlıqlarla təmin olunmuş tədris klinikaları, ölkənin aparıcı tibb təhsili və elmi-tədqiqatları həyata keçirən koordinasiya mərkəzi, tibb təhsilinin hər iki pilləsində kadr hazırlığının Türkiyə və bir sıra Avropa universitetləri ilə birgə aparılması və s.) həll olunsa da müəyyən problemlər də (professor-müəllim heyətinin ali təhsildə yeni pedaqoji texnologiya üzrə hazırlığın lazımi səviyyədə olmaması, ixtisaslar üzrə hazırlıqda biliyin əsas, bacarıq, vərdiş və etik yanaşmaların tədrisində çatmamazlıqlar, xarici ölkə universitetləri ilə birgə fəaliyyətin olduğu halda ikili diplomların verilməməsi, əlavə təhsil sahəsində fəaliyyətsizlik, məzunlarla zəif əlaqə, onların potensialından istifadə olunmaması, regionlarda universitetin elm və tədris mərkəzlərinin olmaması, əməkdaşlara differesə olunmuş əmək haqqının verilməməsi və s.) mövcuddur.

«Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nın həyata keçirilməsi ilə bağlı fəaliyyət planına uyğun olaraq ATU planlı, mütənasib və balanslaşdırılmış şəkildə inkişaf etdirilməli, tarixən əldə edilmiş ənənələr və nailiyyətlər itirilmədən universitetin gələcək inkişafı, tibb təhsilinin, tədris-metodik işlərin, elmi-tədqiqatların, təşkilatı idarəetmə və maliyyə fəaliyyətinin keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəldilməlidir. Universitetdə müəyyən edilmiş əsas inkişaf istiqamətləri üzrə aşağıdakı tədbirlər planının həyata keçirilməsi əsas məqsəd kimi qarşıda durur. Təqdim olunan inkişaf planı açıqdır, zəruri hallarda ona əlavələr edilə bilər.